## Demokratiyanın iki üzü - ədalətin ikili standartı

# Azərbaycanla təzyiq dili ilə danışmağın zamanı çoxdan keçib

## Hətta bu, terror vasitəsilə edilsə də

Rusiya ilə Azərbaycan arasında 2024-cü ilin dekabrında AZAL-a məxsus təyyarənin vurulması ilə başlayan gərginlik daha açıq və sistemli xarakter almağa başlayıb. Cari il iyunun sonlarında Rusiyanın Yekaterinburq şəhərində azərbaycanlılara qarşı başlayan fiziki və mənəvi terror bu gün RF-nin demək olar bütün subyektlərində davam edir.

Artıq iş o yerə çatıb ki, rəsmi Moskva soydaşlarımıza qarşı apardığı "mübarizə"ni Ukrayna ərazisində Azərbaycan Dövlət Neft Şirkətinə məxsus obyektlərə dağıdıcı zərbə endirməklə açıq müharibəyə çevirib. Rusiya ordusunun avqustun 6-da Odessa vilayətində Ukrayna-Rumıniya sərhədi yaxınlığında Ukraynanın təbii qaz tədarükünün təmin edildiyi kompressor stansiyasını partlatması Azərbaycanın xaricdəki enerji obyektinə tuşladığı ilk zərbəsi idi. Sözügedən kompressor stansiyası Trans-Balkan qaz kəməri vasitəsilə Yunanıstanın mayeləşdirilmiş təbii qaz (LNG) terminallarını Ukraynanın qaz anbarları ilə birləşdirən marşrut çərçivəsində istifadə olunurdu. ABŞ-dən mayeləşdirilmiş təbii qaz və Azərbaycan qazının sınaq həcmləri bu yolla ölkəyə nəql edilirdi.

Bu gün Rusiya telekanallarında ölkəmizə qarşı ciddi informasiya müharibəsi gedir. Ümumiyyətlə, Rusiya qonşu ölkələrin müstəqil siyasi, iqtisadi əlaqələr qurmasına cidd-cəhdlə mane olmağa çalışır. Bu bir həqiqətdir ki, Moskva bütövlükdə Cənubi Qafqaza, yumşaq desək, öz nüfuz dairəsi kimi baxır, region dövlətlərinin müstəqil siyasət yeritmələrini heç cür həzm edə bilmir. Bölgədə yeni geosiyasi hadisələrin baş verdiyi indiki həssas məqamda ciddi şəkildə oyundankənar təhlükəsi ilə üzləşmiş Rusiya var gücü ilə region ölkələrinin daxili və xarici siyasətlərinə müxtəlif vasitələrlə müdaxilə etməyə çalışır. Kremllə bağlı təbliğat ruporlarının Bakını "xüsusi hərbi əməliyyat"la hədələmələrini, Vaşinqtonda Azərbaycanla Ermənistan arasında Zəngəzur dəhlizi (TRIPP) və digər məsələlər barədə razılaşma sənədlərinin imzalandığı gün - avqustun 8-də Rusiyanın SOCAR-ın Odessa vilayətində yerləşən neft bazasına hücumunu və son 10 gündə hadisələrin ardıcıl olaraq iki dəfə təkrarlanmasına diqqət etsək görərik ki, Rusiya artıq Ukrayna ərazisində ölkəmizə qarşı xüsusi hərbi əməliyyatlara başlayıb.



Azərbaycan regionun ən böyük və zəngin potensialı olan ölkəsidir. Bizim həm Qərblə, həm Türkiyə, İsrail, Pakistanla, həm də Çinlə güclü iqtisadi, siyasi, hərbi əlaqələrimiz var. Rusiyadan demək olar ki, iqtisadi asılılığımız yoxdur. Belə bir məqamda Rusiyanın ölkəmizə məxsus enerji strukturlarına zərbə endirməsi, Azərbaycanın Avropa İttifaqı ilə qaz sahəsində əməkdaşlığını genişləndirdiyi məqamda belə çirkin üsullardan istifadəsi yolverilməzdir, eyni zamanda beynəlxalq hüquqa ziddir.

Azərbaycanın enerji infrastrukturu hədəf altında olduğu bir vaxtda Rusiyanın Xəzərdə "Dəniz enerji infrastrukturunun mühafizəsi və müdafiəsi" adı ilə hərbi təlimlər keçməsi də ölkəmizə qarşı əzələ nümayişindən başqa bir şey deyil.

Şübhəsiz ki, təsir əks-təsirə bərabərdir. Azərbaycan Hərbi Dəniz Qüvvələri də cari ilin hazırlıq planına əsasən, "Dəniz enerji infrastrukturunun mühafizəsi və müdafiəsi" sahəsində avqustun 14-də döyüş atışlı taktiki təlim keçirdi. Plana əsasən, təlimə cəlb olunan qüvvə və vasitələr Xəzər dənizinin Azərbaycana məxsus sektorunda enerji infrastrukturlarının mühafizəsi və müdafiəsi üzrə bacarıq və imkanlarını sınaqdan keçirdilər. Həmçinin gündüz və gecə şəraitində, sahildə və adalarda şərti düşmənin müvəqqəti baza məntəqələrinin aşkar olunması və xüsusi əməliyyatlarla terror qruplaşmalarının məhv edilməsi üzrə taktiki elementlər yerinə yetirdilər. Döyüş atışlı taktiki təlimdə əsas diqqət mürəkkəb şəraitdə gəmilərin idarə olunmasına, dəniz qüvvə və vasitələri arasında qarşılıqlı əlaqənin təşkilinə, uzlaşmanın və birgə fəaliyyətlərin təkmilləşdirilməsinə yönəldildi

Bu təlimdən sonra əminliklə demək olar ki, Bakı öz enerji infrastrukturu üçün müdafiə planlarını gücləndirmək əzmindədir. Xüsusən dənizdə yeni texnologiyaların - pilotsuz döyüş gəmilərinin istifadəsi, "Salvo" tipli qayığın təlimlərdə görünməsi Azərbaycanın hərbi modernləşməyə önəm verdiyini göstərir. Həmçinin rəsmi Bakı təhdidlərə qarşı susmaq niyyətinin olmadığını, Rusiyanın təxribatlarına açıq şəkildə cavab verməkdən çəkinmədiyini nümayiş etdirdi. Rusiya anlamalıdır ki, Azərbaycan hansısa marionet dövlət deyil, bizimlə təzyiq dili ilə danışmağın zamanı çoxdan keçib. Azərbaycan dost əlini sıxdığı kimi, düşmən təxribatına da cavab vermək iqtidarındadır.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*